# BİRİNCİ TÜRKÇÜLÜK ÇALIŞMALARI

qanun nəşriyyatı

**Birinci Türkçülük Çalışmaları:**
**Məqalələr toplusu, red. Nəsib L.Nəsibli**
Bakı: Qanun Nəşriyyatı, 2024, 400 s.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 19.02.2024

Birinci Türkçülük Çalışmaları Düzənləmə Qrupu:
Nəsib L. Nəsibli, Odər Qutluər, Ergün Ucatürk

| | |
|---|---|
| Korrektor: | Aytən Səadəti |
| Qapaq dizaynı: | Rafael Qasım |
| Mətn dizaynı: | Rahilə Şamilqızı |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-905-0

© Qanun Nəşriyyatı, 2024
© Nəsib L. Nəsibli, Odər Qutluər, Ergün Ucatürk, 2024

*Türkçü düşüncə qurbanlarının*
*əziz xatirəsinə*

## İÇİNDƏKİLƏR

Ön söz ........................................................................................ 7

Çağdaş türkçülüyün xarakteri və mahiyyəti:

Yeni formul arayışları ........................................................................ 13

Millət anlayışımız: hüdudları, əsasları və mahiyyəti ............................ 33

Vətəndaş, ya etnik millətçilik ............................................................... 47

İdeoloji kimlikdən siyasi kimliyə............................................................ 69

Türkçülüğün Tanımlandırılması Meselesi ............................................ 77

Bir daha millətimizin və dilimizin adı haqqında .................................. 107

Millətləşmənin harasındayıq? ............................................................... 119

Millətçilik – hər kəsin yaşam haqqıdır.................................................. 139

Sömürgə keçmişin tarix şüurumuza təsiri ............................................. 145

Azərbaycan tarixinin qəhrəmanlıq səhifələri: tarix və müasirlik........... 157

Əqidə yolunun mücahidi Əli bəy Hüseynzadə ..................................... 163

M.Ə.Rəsulzadənin sosial-demokratiyadan millətçi-türkçü düşüncəyə

keçməsini şərtləndirən amillər ............................................................... 181

Millət və dövlət qurucularımız: günümüzdən bir əsr öncəyə baxış........... 199

Karabağ Savaşı'nın Bütün Azerbaycan Türklerinin Ulus Anlayışına

Etkisi ........................................................................................... 207

Milli məsələlər: milli kimlik, dil, milli təhsil......................................... 215

Türkçü ve Turancı Fikirde Tarih Bilincinin Yerleşip Yükselmesi İçin Gerekenler ........ 229
Poeziyada saylar üzrə qənaət prinsipi ........ 241
Tanrıçılıqda əyələr sistemi ........ 253
Qıpçaqlar mənbələrdə ........ 261
Türklərin etnik düşüncəsində sistemsizlik, onu yaradan amillər və həlli yolları ........ 275
Abdulla Şaiqın "Türk çələngi" dərsliyi ümumtürk mədəniyyətinin inikası kimi ........ 297
Türk Dünyasının Diplomasideki Kimlik Sorunu: Türklük Anlayışı ........ 307
Artık Hayal Değil – Türk Birliği'nin Hedefleri Ve Önündeki Engeller ........ 333
Turançılığın məzmun və mahiyyəti nədir? ........ 355
Türk dünyasının siyasi-ideoloji problemləri: milli və Anti-milli konsepsiyalar ........ 363
Ədəbiyyatda Turan ideologiyası: Hüseyn Cavid ........ 373
Türkmeneli'nde En Büyük Günah: Türkçülük Ve Turancılık! ........ 387

## ÖN SÖZ

Dövlət, yanında sağlam millət olduqda güclü və davamlı olur. Yüksəlməsi üçün ölkənin qoşa qanada ehtiyacı vardır. Biri dövlətdirsə, o biri millətdir. Dövlətin varlığı, güclənməsi zərurətindən bəhs edirik.

Bu bir gerçəkdir: Millət, milliyyətçilik anlayışlarından, uyğun olaraq faktından bir çoxları qorxur. Halbuki qorxmağa heç gərək yoxdur. Dünya praktikası da açıq-aydın sübut etmişdir: Milliyyətçilik qurucu bir hərəkatdır. Əhməd Ağaoğlu demişkən, milliyyətçilik elə bir zərurətdir ki, heç bir millət ondan yan keçə bilməz. O, 1909'da yazırdı: "...hər fərdin ömründə olduğu kibi bir millətin ömründə də dövrələri var. Bu dövrələri keçmək məcburi bir əməldir". Daha sonra Ağaoğlu Avropa ölkələrindən öyrənməyin vacib olduğunu deyir, Avropa tarixində milliyyətçiliyin oynadığı müsbət quruculuq rolundan bəhs edir və göstərir ki: "...cümlə millətlərin ən parlaq mərhələləri həman "millətçilik" deyilən dövrələridir! Əlan ümum dünyanı heyrətdə qoyan, ümum dünyaya hökmfərma olan, o müşəşə [parlaq], o müqtədir, öz ülum, sənayesi ilə ouce-əlayə [yüksəklərə] çatmış Fransanı, İngiltərəni, Almaniyanı, İtaliyanı bu əzəmətə, bu həşəmətə çıxaran həman millətçilik, həman nasyonalizm dövrəsi oldu!"[1]

[1] Əhməd Bəg Ağayef, Millət və millətçilik, *Tərəqqi,* 22 yanvar 1909, N 16, s. 2.

Zərdabi və Şeyx Cəmaləddindən tutmuş Elçibəy və Heyətə qədər bizim düşüncə həyatında izi qalan şəxsiyyətlərimizin hamısı Türklüyümüz üçün savaşmış, minlərlə insanımız pantürkist (Türk birliyi) fikirləri və əməllərinə görə repressiyaya məruz qalmışdır. Bu gün ölkəmizin güneyində onlarla milli fəalımız Türkçü, pantürkist ittihamı ilə zindanlara atılır. Yad rejimlərin Türk adına və başqa milli dəyərlərimizə düşmən kəsilmələri anlaşılandır. Milli şüuru olmayan soydaşlarımızın isə sayının milyonlarla ölçülməsi anlaşılması çətin, qəbulu mümkün olmayan dramatik gerçəklikdir. Halbuki bu tip insanımız başqa millətlərin öz dəyərlərinə sayğı ilə yanaşmasına həsəd aparır; millət və milliyyətçilik haqqında Qərb müəlliflərinin əsərlərindən həvəslə alıntı verir.

Hər şeydən əvvəl, millət haqqında bayat Sovet təsəvvürlərindən, stalinizm irsindən silkinib qurtulmaq lazımdır. Daha doğrusu, Sovetin sırıdığı millət, millətçilik/milliyyətçilik qorxusundan azad olmaq gərəkdir. Bu sahədə çox gec qalmışıq. Müstəqilliyimizin 32. ilində "millət", "milliyyətçilik" anlayışlarına aydınlıq gətirmək vəzifəsi dimdik ayaqdadır. Anayasamızda çox sayda "milli", yəni millətə aid olan mənasında sözlər vardır. Örnək üçün bir dənə belə "millət" sözünə rast gələ bilməzsiniz. Düşündürücüdür.

Nədən *Birinci Türkçülük Çalışmaları* adında israr etdik? *Çalışma* deyəndə nəyi göz önünə gətirdik? Adətən, elmi toplantının qarşılığı olaraq seminar, konfrans, simpozium, kollokvium, Türkiyədə məsələn "çalıştay" anlayışlarından istifadə edilir. Seminar/çalıştay daha canlı, sual-cavablı, müzakirəli-mübahisəli elmi tədbir olduğu üçün məqbul ola bilərdi. Amma bizim təsəvvürümüzdəki *çalışmalar'*ın semi-

nardan/çalıştaydan başqa bir də kitablaşması mərhələsi vardır.

Nədən Türkoloji, Türklük deyil, *Türkçülük* adını seçdik? Bir-birinə zidd deyil, amma fərqli anlayışlardır. *Türkçülük* elmi olmaqdan daha çox ideoloji anlayışdır, demək gələcəyə yönəlik ideyaları, düşüncələri içinə alır.

Təkrarda fayda vardır; marksizm-leninizmin hakim olduğu Sovet dönəmində, eləcə də ondan sonra milliyyətçilik adətən mürtəce cərəyan sayılır. Uyğun olaraq 1936'dan sonra "Türkçü", "pan-Türkist" adı ilə onminlərlə adamı buzlu cəhənnəmə – Sibirə göndərdilər, ya da burada güllələdilər. Həmin xof yenə də qalır. Bu xof-qorxu özəlliklə etnik azlıqlar, Türk olmayanlar arasında mövcuddur. Amma əbəsdir. Çünki Türkçülük şovinizm deyildir, irqçilik heç deyildir. Həsən Bəy Zərdabidən üzü bəri fikir və əməl böyüklərimizin irsini ələk-fələk eləsinlər, Türkçülüyü təmsil edənlərin irsində başqasına nifrət yoxdur. Türkçülük öz varlığını qorumaq, öz problemlərini çözmək, bu milləti yüksəltmək hərəkatıdır.

Bunu da vurğulayaq: *Türkçülük* ayrı *Turançılıq* ayrı. Türkçülüyə Türkiyəçilik kimi baxanlar da var. Yanlış olmasa da, dəqiq deyil. Türkiyə bizim qardaş dövlətdir. Onunla qardaşlıq münasibətləri Turançılıq kateqoriyasına girir.

Elmi toplantımızın adında nədən *birinci* sözü yer aldı? Qismət olarsa ikincisində dil, üçüncüsündə təhsil məsələlərinə, dördüncüsündə Türkçülük-Azərbaycançılığın bir-birinə münasibətinə... həsr edilən simpoziumların şahidi olacağıq. Türkçü Düşüncə Birliyi'nə görə, bu çalışmalar Türkçülüyün elmi əsaslara oturmasında önəmli rol oynaya bilər.

*Birinci Türkçülük Çalışmaları'*na lojistik dəstək verməsi və öz mütəxəssislərini bu tədbirə yönəltməsi ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəhbərliyi tarixi bir addım atmışdır. Türkçü Düşüncə Birliyinin bu təşəbbüsünü müsbət qarşıladığı üçün ona təşəkkür borcluyuq.

***

20 sentyabr 2023 tarixində gerçəkləşən *Birinci Türkçülük Çalışmaları*'nın (BTÇ) ilk, simpozium hissəsində 16 məruzə dinlənildi. Müxtəlif məsələlər haqqında neçə-neçə çıxış oldu. Əslində bu, beynəlxalq simpozium xarakteri aldı. Ölkənin elm adamlarından başqa Türkiyədən və Gürcüstandan da qonaqlar təşrif gətirdilər. Azad elmi ortamda sərbəst fikir mübadiləsi etmək keyfini yaşadıq.

BTÇ, ölkədə Türkçülük mövzusunda ilk elmi müzakirə deyildir.[2] Son da olmayacaq. Bu müzakirələr hər gün hər evdə, hər müəssisədə və idarədə baş verir. Millətimizin adı, keçmişi və gələcəyi, keçmişdəki və indiki qəhrəmanlarımız, qurucu babalarımız, dilimizin durumu, simvollarımız kimi mövzular danışılır, fərqli fikirlər söylənilir, müzakirə, çox vaxt da mübahisə edirik. Çox doğaldır. Çünki sürətli millətləşmə dönəmini yaşayırıq və millətimizin hələ çözülməmiş neçə-neçə problemi qalır. Ona görə də çıxışçılar və qonaqlar BTÇ'nin ideoloji həyatda önəmli təşəbbüsün başlanğıcını qoyacağı ümidini vurğuladılar.

[2] Azərbaycan Araşdırmaları Vəqfi olaraq 25–26 aprel 1997 tarixində Bakıda *"Azərbaycanın Türkçülük və Azərbaycançılıq problemləri"* mövzusunda elmi-nəzəri konfrans təşkil etdik. Konfrans materialları da çap edildi. *Azərbaycanın Türkçülük və Azərbaycançılıq Problemləri*, Bakı: Ay-Ulduz nəşriyyatı, 1998.

Türkçülük çox geniş mövzu olduğu üçün bir gündə onu hər yanı ilə ələ almaq mümkün deyildir. Ona görə də *Çalışmalar'*ın birincisində məhdud sayda mövzuları müzakirəyə çıxardıq. Məruzəçilərdən öncədən elan etdiyimiz mövzulardan kənara çıxmamalarını xahiş etdik. *Türkçülük Çalışmaları*'nın birincisi üçün üstünlük verdiyimiz mövzular bunlar idi: Azərbaycanda Türk millətinin əsas problemləri; tək etnonim məsələsinin önəmi; millət, milliyyət, etnik azlıq anlayışları; Milli tarix şüurunun yerləşməsi və yüksəlməsi üçün gərəkənlər; Millət qurucularımız, onların yaratdığı mirasın mənimsənilməsi problemi; Tarixi qəhrəmanlarımız sahəsində indiki durum, tarixi qəhrəman anlayışının parametrləri, bu siyahıda yer alacaq gerçək milli qəhrəmanlarımız; Milli günlərimiz və simvollarımız mövzusunun önəmi, bu sahədəki əskiklərimiz; Türkçülük-çağdaşçılıq münasibətləri; Türkçülüyün İslama münasibəti; Turançılığın mahiyyəti; Türk Dünyasında bütünləşmənin problemləri və gələcəyi. Məruzələr və məruzə ətrafında çıxışlar bu qədər məsələnin bir gündə geniş müzakirəsinin mümkünsüzlüyünü ortaya qoydu.

Simpoziumda dilə gətirilən fikirlər daha artıq adama çatsın[3] və kitablıqlarda gərəkən yerini alsın deyə məruzələrin elmi məqalə şəklinə salınması və çapında israr etdik. Topludakı məqalələrin çoxusu simpoziumda dinlənildi, müzakirə edildi. Elə toplantıda bu məsələlərin hələ çox müzakirəyə nədən olacağı aydın göründü. Bu məsələlərə tabu qoymağın anlamsız olduğu da vurğulandı.

[3] BTÇ'nin simpozium bölümünün video özəti Youtube'a yüklənilib. https://youtu.be/6IZr5pqWx1E?se=poWKGNqd0Fy8EY0- ; https://www.youtube.com/watch?v=X-QwLZ8BF-w ; https://www.youtube.com/watch?v=FUbM5__r0f8 19.10.2023 tarixli giriş.

Simpoziuma hakim olan sərbəstlik məqalələrdə də özünü göstərir. Toplunun redaktoru olaraq müəlliflərin fikirlərinə qətiyyən müdaxilə etmədik, müəllifə *filan məsələ yanlışdır, onu dəyişdir* təklifi etmədik. Çox istəsək də əski Sovet/Rus yazı qaydalarına əsaslanan indiki yarıtmaz yazı qaydalarına belə əl dəymədik. İstədik Türkçülük düşüncəsində hansı durumda olduğumuzu topludakı məqalələr də açıq göstərsin. Və təkrar edək – hələ milli məsələlər çox müzakirə edilməli, mübahisələrə nədən olmalıdır. Ki millət, bu dəyərlər haqqında ortaq paylaşılan mövqeyə sahib olsun. Zatən normal millət olmanın yolu da budur.

**Prof. Nəsib L.Nəsibli,**
*Birinci Türkçülük Çalışmaları*
*Təşkilat Qrupu adından.*

# ÇAĞDAŞ TÜRKÇÜLÜYÜN XARAKTERİ VƏ MAHİYYƏTİ: YENİ FORMUL ARAYIŞLARI

Bədirxan Əhmədli[1]

Birbaşa mətləbdən başlayaq; türkün tarixi özü qədər qədimdir, ondan sonra isə türklüyün tarixi gəlir. Türkçülüyün, türkləşmənin tarixi isə yaxın zamanlara dayanır; XIX əsrin ortalarından başlayan bu proses zaman-zaman müəyyən mərhələlərdən keçmişdir; maarifçi türkçülük, elmi türkçülük (türkologiya), siyasi türkçülük, ideoloji türkçülük. Türkçülüyün keçdiyi yola nəzər salarkən prof. Nəsib Nəsiblinin belə bir fikri ilə razılaşmaq lazım gəlir: Lap başından türkçülük müdafiə hərəkatı idi, özünü qoruma, öz dəyərlərini qoruma və gəlişdirmə hərəkatı idi".[2] Ən sonda bu hərəkat türkləşmək kimi formalaşaraq üçlü formulun ilk ayağını təşkil edib. Türkçülüyün ayrı-ayrı mərhələsində Əli Süavi, M.Ə.Yurdaqul, Ə.Hüseynzadə, Z.Gökalp, Y.Akçura, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə kimi türkçülər onu şəkilləndirdilər və müəyyən bir formul

---

[1] Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda şöbə müdiri, filologiya elmləri doktoru, professor bedirxan@gmail.com

[2] Nəsib L.Nəsibli, *Türkçü düşüncənin əsasları*, Bakı: Qanun, 2022, s. 9

halına saldılar. Bu ideya əlli ildən çox yol gələrək sonda "Türkləşmək, müasirləşmək, islamlaşmaq" şəklində möhkəmləndi. Təəssüf ki, bu barədə elmi yanlışlıqlar türkçülük araşdırmalarında hələ də davam edir.

*Mövcud ideyaları formul halına salan və türkçülüyü sistemləşdirən Z.Gökalp olmuşdur*[3]. Lakin onun formulunda islamlaşmaq müasirləşməkdən irəlidə gəlirdi. Azərbaycanda "Türkləşmək, müasirləşmək, islamlaşmaq" formulunun dövlət atributunda-bayrağında təmsil olunmasının müəlliflik hüququnun M.Ə.Rəsulzadəyə aid olduğu göstərilir[4]. Türkçülüyün dövlətçiliyin əsasını təşkil etməsi prosesi əvvəlcə Azərbaycan, daha sonra isə Türkiyə Cümhuriyyətin qurulması ilə başa çatdı. Sonrakı dövrdə türkçülük sanki özünün tənəzzül dövrünü yaşadı; siyasi, ideoloji cəhətdən inkişaf etmədi, yeni meyillər və istiqamətlər müəyyənləşmədi. Bunu təkcə Sovetlər Birliyi ilə məhdudlaşdırmaq düzgün olmazdı, elə Türkiyənin özündə də türkçülük fəlsəfəsinin inkişafında yeni ideyalar əlavə olunmadı və təmayüllər formalaşmadı.

Ötən müddət ərzində türkçülüyün mahiyyəti və xarakteri yüz il öncəkinə görə xeyli dəyişmişdir. Türkçülük yalnız nəzəri xarakter daşımır, həm də əməli xarakter daşıyır. Türk millətinin adı olmasına rəğmən, onun dili müxtəlifləşdi, yəni ayrı-ayrı ləhcələr dil statusu almağa başladı. Yüz il əvvəlki türkçülük hərəkatının nəticəsi olaraq belə mənzərə yarandı; Azərbaycan dili (bu adın doğ-

---

[3] Bədirxan Əhmədli, *Türkçülüyün üçlü formulu*. Nəzəri və tarixi aspektləri, Bakı: Elm və təhsil, 2019, s. 99–102

[4] Yenə orada, s. 1–3–106